İQTİSADİ İSLAHATLARIN
TƏHLİLİ VƏ KOMMUNİKASİYA
MƏRKƏZİ

Noyabr 2017

# AZƏRBAYCAN İQTİSADİ İSLAHATLAR İCMALI



# “Azərbaycan Sənaye Korporasiyası” Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı



“Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanının tətbiqi ilə əlaqədar dövlət əmlakının idarə edilməsinin səmərəliliyini artırmaq, korporativ idarəetmə prinsiplərinə əsaslanan hesabatlılıq və nəzarət sistemini formalaşdırmaq, dövlətə məxsus müəssisələr arasında əlverişli kooperasiya əlaqələrinin yaradılmasına və istehsal potensialının dəyər zəncirinin həlqələri üzrə artırılmasına nail olmaq məqsədilə Azərbaycan Respublikası Prezidenti, cənab İlham Əliyev tərəfindən 2017-ci il 6 noyabr tarixli Fərmana əsasən səhmləri dövlətə məxsus olan “Azərbaycan Sənaye Korporasiyası” Açıq Səhmdar Cəmiyyəti yaradılmışdır.

Ölkədə iqtisadiyyatın tarazlı, rəqabətqabiliyyətli və dayanıqlı inkişafını təmin etmək dövlətin iqtisadi siyasətinin prioritetlərindəndir. Aparılan davamlı iqtisadi islahatlar və iqtisadiyyatın diversifikasiyası siyasəti nəticəsində iqtisadiyyatın bütün sahələrində olduğu kimi, sənayenin inkişafında da böyük uğurlar qazanılmış, sənaye məhsulları istehsalının həcmi xeyli artmışdır.

Uğurlu inkişafın təmin edilməsi üçün növbəti dövrlərdə də, müasir çağırışlar və yeni təşəbbüslər nəzərə alınmaqla, iqtisadi islahatların əsas strateji hədəflərinə uyğun bir sıra tədbirlərin həyata keçirilməsi, o cümlədən mövcud təbii və iqtisadi resursların təsərrüfat dövriyyəsinə cəlb edilməsi, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin balansına götürülmüş əmlakın daha səmərəli idarə olunması zəruridir.

Bu məqsədlə və eyni zamanda, "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr

tarixli 1138 nömrəli Fərmanının tətbiqi ilə əlaqədar dövlət əmlakının idarə edilməsinin səmərəliliyini artırmaq, korporativ idarəetmə prinsiplərinə əsaslanan hesabatlılıq və nəzarət sistemini formalaşdırmaq, dövlətə məxsus müəssisələr arasında əlverişli kooperasiya əlaqələrinin yaradılmasına və istehsal potensialının dəyər zəncirinin həlqələri üzrə artırılmasına nail olmaq məqsədilə Azərbaycan Respublikası Prezidenti tərəfindən 2017-ci il 6 noyabr tarixli Fərmana əsasən səhmləri dövlətə məxsus olan "Azərbaycan Sənaye Korporasiyası" (ASK) Açıq Səhmdar Cəmiyyəti yaradılmışdır..

Fərman çərçivəsində, eyni zamanda, aşağıdakı müddəaların tətbiqi öz əksini tapmışdır:

· "ASK" ASC-də 5 üzvdən ibarət Müşahidə Şurası yaradılması;

· "ASK" ASC-nin fəaliyyətinə cari rəhbərliyin Baş direktor tərəfindən həyata keçirilməsi;

· "ASK" ASC-də Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə ümumi yığıncağın müstəsna səlahiyyətlərinə aid edilmiş məsələlərin Azərbaycan Respublikasının Prezidenti tərəfindən həll edilməsi;

· "ASK" ASC-nin strukturunun təsdiqini, işçilərinin əməkhaqlarının müəyyənləşdirilməsini və nizamnaməsi ilə Müşahidə Şurasına həvalə edilmiş digər səlahiyyətlərin "ASK" ASC-nin Müşahidə Şurası tərəfindən həyata keçirilməsi;

· "ASK" ASC-nin nizamnamə kapitalı və fəaliyyəti üçün digər aktivlər, əsasən, "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyətinin "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətindən aldığı problemli aktivlərin (borcların) əvəzində əldə edilmiş, onun mülkiyyətində (balansında) olan və "ASK" ASC-nin mülkiyyətinə (balansına) veriləcək əmlak hesabına formalaşması.

Fərman çərçivəsində qarşıya qoyulan məqsədlər arasında, eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası tərəfindən bir ay müddətində aşağıdakılarla bağlı təkliflərin hazırlanaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi nəzərdə tutulmuşdur:

· "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyətinin "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətindən aldığı problemli aktivlərin (borcların) əvəzində əldə edilmiş, onun mülkiyyətində (balansında) olan və "ASK" ASC-nin mülkiyyətinə (balansına) veriləcək dövlət əmlakının siyahısı və həmin əmlakın ötürülməsi mexanizmləri;

· "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyətinin "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətindən aldığı problemli aktivlərin (borcların) əvəzində əldə edilmiş, onun idarəetməsində olan və "ASK" ASC-nin idarəetməsinə veriləcək problemli aktivlərin (borcların) siyahısı və həmin əmlakın idarəetməyə verilməsi mexanizmləri.

Fərmana uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Azərbaycan Respublikası Prezidentinin aktlarının, Nazirlər Kabineti və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılması və eyni zamanda "ASK" ASC-nin fəaliyyətinin təmin edilməsi məqsədilə onun müvafiq inzibati bina ilə təmin olunması ilə bağlı təkliflərini hazırlayaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim etməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi də öz növbəsində mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verməsi Fərman çərçivəsində öz əksini tapan məqamlar arasında yer almaqdadır.




www.iqtisadiislahat.org

www.ereforms.org

www.ecoreform.az

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073

info@ereforms.org

(+994)12 5213318

/ iqtisadiislahat